## Budaq TƏHMƏZ



### GÖZLƏ GƏLƏCƏYƏM...

Gözəl kəndim, çiçəyinə vurğunam,
Güllərinin ləçəyinə vurğunam,
Gözəllərin göyçəyinə vurğunam,
Gözlə məni, gələcəyəm görüşə.

O məktəb yolları gözümdə durur,
Hər zaman ürəyim səninlə vurur,
Xəyalım hüsnünlə bir məclis qurur,
Gözlə məni, gələcəyəm görüşə.

İllərdi ki, səndən ayrı gəzirəm,
Ayrılığın hicranına dözürəm,
Həsrətinlə ürəyimi üzürəm,
Gözlə məni, gələcəyəm görüşə.

Gəlib çinar altda bir gün duraram,
İtən gəncliyimi ondan soraram,
Uşaqları yığıb məclis quraram,
Gözlə məni, gələcəyəm görüşə.

Hər qarışda sinən üstə izim var,
Sənə deyilməmiş hələ sözüm var,
Hayana getsəm də səndə gözüm var,
Gözlə məni, gələcəyəm görüşə.

*Bakı 01.01.2023.*

### ANAMIN ƏTRİNİ NƏNƏMDƏN ALDIM

Ana laylasına həsrət qalmışam,
Anamın ətrini nənəmdən aldım.
Anam yada düşüb, yaman dalmışam,
Anamın ətrini nənmdən aldım.

Mən el bilirdim anamdı nənəm,
Məni çimdirərdi, əzizləyərdi.
Məktəbə getmirdim o illərdə mən,
Yaman dəcəl idim, hərdən döyərdi.

Çəkilib bir küncə ağlayardım mən,
Məni döydüyünə peşman olardı.
Gəlib üz-gözümdən öpərdi həmən,
Bəzən də nənəmin gözü dolardı.

Mən nə ata gördüm, nə də ki, ana,
O, qanlı illərdə doğulmuşam mən.
Özüm də bilmədən gəldim cahana
Məni böyütmüşdü ağbirçək nənəm.

Anasız körpələr necə olardı,
O, gündən meylimi nənəmə saldım.
Yaxşı ki, dünyada nənələr vardı,
Anamın ətrini nənəmdən aldım.

Anasız uşağa anadı nənə,
Onların qeydinə nənələr qalır.
Sevib əzizləyir o, dönə-dönə,
Amansız ölümdən intiqam alır.

*Bakı 15.01.2023.*

### DÖYÜŞ VAXTIDI

*Bahar gəldi, qar əridi,*
*Araz daşdı, havalandı,*
*Ürəyimdə bir yara var*
*O, Təbrizdi Savalandı.*
**Müəllif.**

Təbrizin üstünü duman alıbdı,
Mollalar araya nifaq salıbdı
Əlim çatmır qardaş, gözüm dolubdu
Qalx ayağa, qardaş, döyüş vaxtıdı.
Dağılan mollanın, Şahın taxtıdı.

Arazın üstündən ucalt səsini,
Titrət gur səsinlə yer kürəsini,
Göstər bu dünyaya türk nərəsini,
Qalx ayağa qardaş, döyüş vaxtıdı,
Dağılan mollanın, Şahın taxtıdı.

Yenə küçələrdə qan tökülür, qan,
İnsanlar asılır dar ağacından,
Ayağa qalxıbdı Eynəli, Zəncan,
Qalx ayağa qardaş, döyüş vaxtıdı.
Dağılan mollanın, Şahın taxtıdı.

Sənin Babəkin var, Səttarxanın var,
Səndədi əzəmət, səndədi vüqar,
Qardaş dar günündə qardaş axtarar,
Qalx ayağa qardaş, döyüş vaxtıdı.
Dağılan mollanın, Şahın taxtıdı.

Təbrizi, Əhəri görməmişəm mən,
Soraq verən yoxdu Qaragiləmdən,
Ayrılıqdan düşüb saçlarıma dən,
Qalx ayağa qardaş, döyüş vaxtıdı.
Dağılan mollanın, Şahın taxtıdı.

Kəpəzdən görünür Savalan dağı,
Bahar fəsli olur qızlar oylağı.
Təbrizin üstündən qaldır bayrağı,
Qalx ayağa qardaş, döyüş vaxtıdı.
Dağılan mollanın, Şahın taxtıdı.

### MƏNİM XƏYAL DÜNYAM

Mənim xəyal dünyam, səndə nələr var,
Karvanını yenə qurub gedirsən.
Qara saçlarıma daha yağıb qar,
Sinəmə sən nələr vürüb gedirsən.

İllərdən keçmişlərə sən baş vurursan,
Ötən illərimi salırsan yada.
Bəzən ürəyimdə məclis qurursan
Gah suya dönürəm, gah da ki, oda.

Düşünüb dünyanın dərdi-sərini,
Bəzən can atırsan gələcəyə sən.
Görüb vətənimin al səhərini,
Ona vurulursan sən də ürəkdən.

Hərdən ürəyimlə verib baş-başa,
Gəzir bu dünyanı şair xəyalın.
Gedirsən sabaha zamanla qoşa,
Bəzən də bir anda dəyişir halın.

Düşünüb ölümü salırsan yada,
Bilirsən dünyanın vəfası yoxdu,
Dünya milyonları veribdi bada
Ölüm ürəklərə sancılan oxdu.

